AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

4 DEKABR 2018-ci il ÇƏRŞƏNBƏ AXŞAMI № 271 (6304) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Prezident İlham Əliyev Rusiyanın rəqəmsal inkişaf, rabitə və kütləvi media nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Rusiyanın rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskovu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskov Bakıda keçirilən XXIV "Bakutel" Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisində iştirak etmək üçün dəvətə görə minnətdarlığını bildirdi. O, bu tədbirə paralel olaraq Bakıda Regional Rabitə Birliyi çərçivəsində region ölkələrinin rabitə nazirlərinin görüşü barədə məlumat verdi. Qonaq qeyd etdi ki, bu görüş və "Bakutel" sərgisi beynəlxalq əməkdaşlığın genişlənməsi işinə öz töhfəsini verəcək. Konstantin Noskov, eyni zamanda, Rusiyanın və Azərbaycanın müvafiq nazirlikləri arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq, artıq iki ölkənin poçt xidmətlərinin səmərəli qarşılıqlı fəaliyyət göstərdiklərini bildirdi və bunun Çindən Azərbaycan vasitəsilə Rusiyaya böyük həcmdə elektron ticarət məhsullarının göndərilməsi üçün imkan yaratdığını dedi. Eyni zamanda, qonaq Azərbaycanla Rusiya mobil rabitə operatorları arasında əməkdaşlıqla bağlı danışıqların aparıldığını dedi.

Prezident İlham Əliyev Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskovun Bakıda keçirilən XXIV "Bakutel" sərgisində iştirakından məmnunluğunu ifadə etdi, eyni zamanda, Regional Rabitə Birliyi çərçivəsində region ölkələrinin rabitə nazirlərinin toplantısının beynəlxalq əməkdaşlığın genişlənməsi baxımından əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Bakıda ənənəvi olaraq keçirilən "Bakutel" tədbirinə beynəlxalq marağın və iştirakçı ölkələrin sayının artdığını qeyd edərək, bu tədbirin telekommunikasiya və texnologiyalar sahəsində əldə olunmuş nailiyyətlərlə yaxından tanışlıq və təcrübə mübadiləsinin aparılması üçün yaxşı imkan yaratdığını bildirdi.

Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə, o cümlədən rabitə və kütləvi kommunikasiyalar sahəsində uğurla inkişaf etdiyi bildirildi və Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi media nazirinin səfərinin əlaqələrimizin möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu.

Görüşdə iki ölkənin müvafiq qurumları arasında kiber təhlükəsizlik sahəsində əməkdaşlıq, təcrübə mübadiləsi, gələcəkdə qonşu ölkələrlə birgə layihələrin həyata keçirilməsi perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

# Prezident İlham Əliyev CİSCO şirkətinin nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də CİSCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrixin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı CİSCO şirkətinin uzun illər Azərbaycan hökuməti ilə uğurlu əməkdaşlıq həyata keçirməsindən məmnunluğunu bildirdi. Prezident İlham Əliyev CİSCO şirkətinin Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən nəqliyyat sahəsində həyata keçirdiyi layihələrə toxunaraq bu sahənin ölkəmizdə prioritet istiqamətlərdən biri olduğunu vurğuladı. Dövlətimizin başçısı regional əməkdaşlıq üçün yeni infrastrukturun yaradıldığını nəzərə alaraq, digər sahələrdə də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi.

CİSCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrix Azərbaycan Prezidenti ilə əvvəlki görüşünü məmnunluqla xatırlayaraq şirkətin ölkəmizlə uğurlu əməkdaşlıq həyata keçirdiyini bildirdi. Ölkəmizə səfərindən xoş hisslər keçirdiyini deyən qonaq səfərinin məqsədinin əməkdaşlığın perspektivlərini müzakirə etməkdən ibarət olduğunu dedi və bu əməkdaşlığın "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasına uyğun şəkildə həyata keçirilməsinin əhəmiyyətini qeyd etdi.

Görüşdə XXIV "Bakutel" Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisinin əhəmiyyətinə toxunularaq bu tədbirin beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyi qeyd olundu.

**AZƏRTAC**

## Xəzər rayonunun Buzovna-Mərdəkan-Qala avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Əlli beş min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Buzovna-Mərdəkan-Qala avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 5,6 milyon (beş milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 3 dekabr 2018-ci il.**

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979, N 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N 1, maddə 19, N 2, maddələr 160, 162, 163, N 3, maddələr 383, 401, 404, N 4, maddə 646, N 5, maddələr 857, 860, 862, 876, 883, N 6, maddələr 1153, 1188; Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1219-VQD, 1221-VQD, 1226-VQD nömrəli qanunları) 538-1.4-538-1.6-cı maddələrində "Müvafiq icra hakimiyyəti orqanı" sözləri "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 oktyabr 2018-ci il.**

## "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1248-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1248-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (II kitab), maddə 259, N 3, maddə 460, N 4, maddə 670, N 6, maddələr 1025, 1063, N 7, maddə 1272, N 9, maddə 1468, N 10, maddələr 1614, 1638; 2017, N 2, maddələr 176, 202, N 3, maddə 351, N 4, maddələr 530, 537, N 6, maddə 1101, N 7, maddələr 1314, 1346, N 8, maddə 1521, N 9, maddə 1637, N 10, maddələr 1788, 1798, N 11, maddələr 2003, 2027, N 12 (I kitab), maddələr 2290, 2320; 2018, N 1, maddə 36, N 2, maddələr 198, 201, N 3, maddələr 418, 428, 443, 445, N 5, maddələr 914, 918, 926, 955, N 6, maddə 1243, N 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, N 8, maddə 1697) aşağıdakı dəyişikliklər edilsin:

*3.1.* 4.1-ci bəndə "adlarında" sözündən sonra ", 538-1.4 - 538.1.6" rəqəmləri əlavə edilsin;

*3.2.* 4.41-ci bənddən "və 538-1.4 - 538-1.6-cı" sözləri çıxarılsın;

*3.3.* aşağıdakı məzmunda 4.41-1-ci bənd əlavə edilsin:

"4.41-1. həmin Məcəllənin 538-1.4 - 538.1.6-cı maddələrində "qurum" dedikdə "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxs nəzərdə tutulur;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 15 noyabr 2018-ci il.**

## "Azərbaycan Respublikası Vergilər Nazirliyi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 665 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Vergilər Nazirliyi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 665 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, N 3, maddə 195; 2005, N 11, maddə 1049; 2009, N 9, maddə 713; 2013, N 7, maddə 822; 2015, N 2, maddə 146; 2016, N 4, maddə 711, N 10, maddə 1653; 2017, N 2, maddə 213) 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikasının Vergilər Nazirliyi kollegiyasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikasının vergilər naziri

**Kollegiyanın üzvləri**

Azərbaycan Respublikası vergilər nazirinin birinci müavini

Azərbaycan Respublikası vergilər nazirinin müavinləri

Naxçıvan Muxtar Respublikasının vergilər naziri

Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi siyasəti departamentinin baş direktoru

Azərbaycan Respublikası Vergilər Nazirliyinin İqtisadi təhlil və ekspertiza departamentinin baş direktoru

Azərbaycan Respublikasının Vergilər Nazirliyi yanında Milli gəlirlər departamentinin baş direktoru.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 noyabr 2018-ci il.**

# “Əlillik qüsur deyil” kitab-albomunun təqdimatı olub

**Dekabrın 3-də Beynəlxalq Əlillər Günü münasibətilə Azərbaycan Dövlət Musiqili Teatrının foyesində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən nəşr edilən “Əlillik qüsur deyil” kitab-albomunun və əlilliyi olan şəxslərin əl işlərindən ibarət hədiyyələrin təqdimatı keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət və hökumət rəsmiləri, tanınmış elm, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

“Əlillik qüsur deyil” kitab-albomunda ümummilli lider Heydər Əliyevin fiziki məhdudiyyətli insanlara, onların sosial müdafiəsi və reabilitasiyasına diqqət və qayğısından, əlilliyi olan şəxslərin sosial təminatı,





reabilitasiyası və cəmiyyətə inteqrasiyası sahəsində Prezident İlham Əliyevin tapşırığına əsasən atılan addımlardan, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə bu istiqamətdə həyata keçirilən nəcib və xoşməramlı layihələrdən bəhs olunur. Nəşrdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın sosial xidmət müəssisələrinin sakinlərinə qayğısı, onlarla keçirdiyi görüşlər də əksini tapıb.

Kitab-albomda incəsənətin müxtəlif növləri ilə məşğul olan fiziki məhdudiyyətli 60-a yaxın şəxs barədə məlumatlar və onların yaradıcılıq nümunələri də yer alıb. Nəşrə, həmçinin Azərbaycanda yeni yaradılmış Boccia İdman Federasiyası və bu idman növünə maraq göstərən fiziki məhdudiyyətli insanlar, onların uğurları, ilk inklüziv ƏSA teatrı, onun yaradıcı heyəti, hazırladıqları tamaşalar barədə məlumatlar daxil edilib. 278 səhifəlik kitabalbomdakı mətnlər həm Azərbaycan, həm də ingilis dilində təqdim olunur.

“Əlillik qüsur deyil” kitab-albomu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdindəki sosial müəssisələrin sakinlərinin yaradıcı fəaliyyətini, onların yaradıcılıq nümunələrini əks etdirən ilk belə nəşrdir. Gələcəkdə bu kitab-albom əsasında əlilliyi olan yaradıcı şəxslərin elektron reyestrinin, eləcə də həmin onlar üçün əl işlərinin satışı portalının yaradılması nəzərdə tutulur.

Tədbir ƏSA Teatrının aktyorlarının ifasında təqdim edilən Moris Metterlinkin “Göy quş” tamaşa-premyerasına baxışla davam edib. 18 aktyorun rol aldığı tamaşada XX əsrin əvvəllərində Belçikada kasıb bir ailənin iki uşağının xoşbəxtlik rəmzi olan Göy quşun axtarışına çıxmasından bəhs edilir. Sonda uşaqlar, onların valideynləri əsl xoşbəxtliyi kənarda deyil, öz evində, öz yurdunda axtarmağın lazım olduğunu anlayırlar. Ümumilikdə, tamaşa nikbinliyi, özünəinam hissini təşviq edir.

Qeyd edək ki, 2016-cı ildə aktyor-rejissor Nihad Qulamzadə tərəfindən yaradılan ƏSA Teatrının aktyor heyəti əsasən əlilliyi olan şəxslərdən ibarətdir. Teatr yarandığı gündən Azərbaycan və dünya ədəbiyyatının şedevr əsərlərini uğurla səhnələşdirir.

**AZƏRTAC**

# Ədliyyə Nazirliyinin kollegiya iclası keçirilib





**Ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilən kollegiya iclasında Azərbaycan Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya”dan irəli gələn ədliyyə orqanlarının vəzifələri müzakirə edilib.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda ümummilli lider Heydər Əliyev tərəfindən dövlət qulluğu sahəsində aparılan islahatlar nəticəsində respublikamızda özünəməxsus dövlət qulluğu sisteminin formalaşdığı, Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş yeni Strategiyanın dövlət qulluğu sahəsində islahatların yeni mərhələsinin əsasını qoyduğu qeyd olunub.

Kollegiyada bu mühüm sənədin dövlət qulluğunun inkişafında müstəsna əhəmiyyəti vurğulanıb, son illər dövlət qulluğunun xüsusi növü olan ədliyyə qulluğunun təkmilləşdirilməsi, ədliyyə orqanlarının hazırlıqlı, mənəvi cəhətdən saf kadrlarla komplektləşdirilməsi, bu zaman dövlət gənclər siyasətinə uyğun olaraq gənclərin işlə təminatı, qulluğa qəbul prosedurlarının xeyli sadələşdirilməsi, ədliyyənin müxtəlif sahələrinə şəffaflıq əsasında işə qəbulla bağlı mütəmadi müsabiqə və müsahibələrin keçirilməsi vurğulanıb. Strategiyanın 2019-2021-ci illərdə icrası üzrə Fəaliyyət Planı ilə Ədliyyə Nazirliyinin üzərinə düşən çoxsaylı vəzifələrin mütəşəkkil, vaxtında və dürüst yerinə yetirilməsi, o cümlədən dövlət qulluğunda kadr siyasətinin inkişafı, dövlət qulluqçularının fasiləsiz peşəkar inkişafının təmin edilməsi, informasiya təminatının və elektron dövlət qulluğunun inkişaf etdirilməsi, bu sahəyə dair qanunvericiliyin təkmilləşdirilməsi və icrasına nəzarət və s. məsələlərlə bağlı müvafiq tapşırıqlar verilib, konkret tədbirlər müəyyən edilib.

Eyni zamanda, iclasda dövlətimizin başçısının qanunvericilik təşəbbüsü ilə 2018-ci il noyabrın 15-də “Notariat haqqında” Qanuna edilmiş əsaslı dəyişikliklərin əhaliyə keyfiyyətli hüquqi xidmətlərin göstərilməsində mühüm rol oynayan notariat fəaliyyətinin səmərəli təşkilində və vətəndaşların əlçatanlığı üçün yeni imkanların yaradılmasında müstəsna əhəmiyyəti qeyd olunub.

Bildirilib ki, notariat sahəsində ardıcıl islahatlar davam etdirilərək notariat orqanlarının səlahiyyətləri genişləndirilir, beynəlxalq təcrübəyə uyğun xüsusi notariat institutu yaradılaraq geniş tətbiq olunur, həmçinin notariat kontorlarını vahid şəbəkədə birləşdirən “Elektron notariat” informasiya sistemi istifadəyə verilib ki, bununla da notariat hərəkətlərinin rəsmiləşdirilməsi xeyli sadələşdirilib. Bu sahədə islahatlara və yeniliklərə beynəlxalq maraq artaraq Azərbaycanın nailiyyətləri qabaqcıl kimi qiymətləndirilir, bir çox dövlətlər müsbət təcrübəmizdən bəhrələnirlər.

Yeni Qanun notariat fəaliyyətinin daha da təkmilləşdirilməsinə xidmət etməklə bu sahədə institusional tədbirlərin, o cümlədən notariat ofislərində idarəçiliyin təkmilləşdirilməsi məqsədilə notariusun köməkçisi institutunun, həmçinin notariusların peşə hazırlığının artırılması üçün təlimlərin keçirilməsi, notariat təcrübəsinin formalaşması və bu sahədə beynəlxalq əlaqələrin genişləndirilməsi, xarici təcrübənin öyrənilməsi məqsədilə Notariat Palatasının yaradılmasını nəzərdə tutur. Həmçinin notariat xidmətlərinin məsafədən, videoəlaqə vasitəsilə həyata keçirilməsi, bu məqsədlə sərhəddə, hava və dəniz limanlarında, dəmir yolu vağzallarında quraşdırılacaq xüsusi ədliyyə köşkləri vasitəsilə ilk dəfə olaraq, notariat sənədlərinin tərtib olunaraq əldə edilməsi mümkün olacaq. Bundan başqa, səyyar elektron xidmətlər göstərmək üçün xüsusi çantalar hazırlanıb.

Kollegiyada qanunvericiliyə edilmiş dəyişikliklərin və Qanunun tətbiqi barədə dövlətimizin başçısının 2018-ci il 20 noyabr tarixli Fərmanının dönmədən və dürüst icrası ilə bağlı tapşırıqlar verilib.

Bununla yanaşı, beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyətin təkmilləşdirilməsi, ölkəmizin sülhsevər siyasətinin hər zaman aşılanması, beynəlxalq tədbirlərdə və görüşlərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan həqiqətlərinin geniş ictimaiyyətin diqqətinə çatdırılması, xarici siyasət sahəsində əlaqələndirmə işinin daha mükəmməl həyata keçirilməsi ilə bağlı əlavə göstərişlər verilib.

Eyni zamanda, ədliyyə orqanlarında şəffaflığın və aşkarlığın təmin olunması, ictimaiyyətlə əlaqələrin gücləndirilməsi üçün xeyli işin görüldüyü, o cümlədən nazirliyin internet səhifəsinin (www.justice.gov.az) interaktiv rejimdə fəaliyyət göstərməsi bildirilib. Saytın Nazirlər Kabinetinin 2012-ci il 4 sentyabr tarixli Qərarı ilə təsdiq edilmiş “Dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılmasına və idarə edilməsinə dair Tələblər”ə uyğun olaraq müasir dizaynda hazırlanmış, ədliyyəyə əlçatanlığı asanlaşdırmaq məqsədilə funksionallığı artırılmaqla daha geniş məlumatları əks etdirən yeni versiyasının təqdimatı keçirilərək, onun tətbiqi ilə bağlı tapşırıqlar verilib.

Kollegiyada dövlətimizin başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası ilə bağlı görülən işlər də müzakirə edilib. Yeni qəbul olunan qanunvericilik aktlarının azadlıqdan məhrumetmə cəzasının tətbiqi hallarının azalmasına, alternativ cəzalara daha çox üstünlük verilməsinə imkan yaratdığı vurğulanıb. Həmçinin probasiya xidmətinin, elektron nəzarət vasitələrinin, ictimai işlər və digər alternativ cəzaların icrası sahəsində fəaliyyətin ictimai əhəmiyyəti nəzərə alınaraq, xüsusi videoçarxların, televiziya verilişlərinin hazırlandığı və ictimaiyyətin geniş maarifləndirildiyi bildirilib.

İclasda azadlıqdan məhrumetməyə alternativ cəzaların mükəmməl icrası ilə bağlı tapşırıqlar verilib, o cümlədən müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrumetmə cəzasına məhkum edilmiş şəxslərə probasiya nəzarətinin həyata keçirilməsi ilə bağlı yeni qaydalar təsdiqlənib.

Bununla yanaşı, ədliyyə fəaliyyətini tənzimləyən digər normativ hüquqi akt layihələri baxılaraq qəbul olunub, bir sıra qeyri-kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alınıb.

**AZƏRTAC**

# Milanda Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin görüşü olacaq

**ATƏT-in Nazirlər Şurasının 25-ci sessiyasında iştirak edən Azərbaycan Respublikası xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistan Respublikası xarici işlər nazirinin vəzifələrini icra edən Zöhrab Mnatsakanyan arasında ATƏT-in Minsk qrupunun həmsədrlərinin (İqor Popov - Rusiya Federasiyası, Stefan Viskonti - Fransa və Əndrü Sxofer - ABŞ) vasitəçiliyi ilə dekabrın 5-də Milanda görüş keçiriləcək.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik də iştirak edəcək.

Görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə danışıqlar prosesi müzakirə olunacaq.

**AZƏRTAC**

# Azərbaycanın xarici işlər naziri Meksikanın yeni seçilmiş prezidentinin andiçmə mərasimində iştirak edib

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Meksika Birləşmiş Ştatları Prezidenti Andres Manuel Lopez Obradorun andiçmə mərasimində iştirak edib.**

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, mərasimə bir sıra ölkələrin dövlət başçıları, yüksək səviyyəli qonaqlar qatılıblar.

Tədbir çərçivəsində Elmar Məmmədyarov Meksikanın yeni təyin olunmuş xarici işlər naziri Marselo Ebrard Kasaubon ilə görüşüb. Görüşdə E.Məmmədyarov Prezident İlham Əliyevin Meksika Prezidentinə səlahiyyətlərinin başlanılması münasibətilə təbriklərini çatdırıb. Tərəflər iki ölkə arasında münasibətlərin inkişafı perspektivlərini müzakirə ediblər.

**AZƏRTAC**

# Bakıda Beynəlxalq Gimnastika Federasiyasının 82-ci Konqresinin açılışı olub

**Dekabrın 2-də Bakıda Beynəlxalq Gimnastika Federasiyasının (FIG) 82-ci Konqresinin açılışı olub.**

AZƏRTAC xəbər verir ki, mərasimdə çıxış edən Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov tədbirin əhəmiyyətini yüksək qiymətləndirib. Nazir bildirib ki, ölkəmiz gimnastika üzrə mötəbər yarışlara yüksək səviyyədə ev sahibliyi edib. Azərbaycan dünyada gimnastika mərkəzlərindən birinə çevrilib. Mehriban Əliyevanın Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilməsi idmanın bu növünün ölkəmizdə sürətli inkişafına təkan verib. Respublikamızda güclü idman infrastrukturu yaradılıb, gimnastikanın kütləviliyinə və populyarlığına nail olunub. Bakının ev sahibliyi etdiyi Konqres innovasiyalar üçün platforma olacaq.

Konqresdə Azərbaycan Gimnastika Federasiyasını baş katib Nurlana Məmmədzadə, bədii gimnastika üzrə Azərbaycan millisinin baş məşqçisi Mariana Vasileva və beynəlxalq əlaqələr üzrə menecer Mehman Əliyev təmsil edirlər.





FIG-nin Nizamnaməsinə əsasən, ən yüksək ali orqan sayılan konqresdə 115-dən çox ölkədən 300-ə yaxın nümayəndə iştirak edir. Konqresdə FIG-nin prezidenti və texniki əlaqələndiricisinin, həmçinin ali qurumun hər bir gimnastika növü üzrə Texniki komitələrinin prezidentlərinin hesabatları dinləniləcək. Daha sonra Beynəlxalq Gimnastika Federasiyasına daxil olan qitə ittifaqlarının rəhbərləri hesabatla çıxış edəcək, habelə qurumun rüblük maliyyə planı təsdiqlənəcək.

Bundan başqa, FIG-ə yeni üzvlərin qəbulu, həmçinin hər hansı bir federasiyanın qurumdan xaric edilməsi məsələsi müzakirə ediləcək və növbəti Konqresin keçirilmə yeri müəyyən olunacaq.

FIG-nin rəhbər orqanlarının və bu quruma üzv federasiyaların Konqresdən əvvəl irəli sürdükləri müxtəlif təkliflər iclasın gedişində müzakirə ediləcək. Həmçinin beynəlxalq qurumun qaydalarına, Nizamnaməsinə ediləbiləcək dəyişikliklərə və müxtəlif mükafatların verilməsinə baxılacaq.

Konqresdən əvvəl, noyabrın 29-da Bakıda FIG-nin Prezident Komissiyasının iclası, noyabrın 30-dan dekabrın 1-dək isə ali gimnastika qurumunun İcraiyyə komitəsinin iclasları keçirilib. Konqres işini dekabrın 3-də yekunlaşdıracaq.

**AZƏRTAC**

*Altay Həsənov:*

# Gələn il dünya gimnastikasının ürəyi Bakıda döyünəcək



**Son on ildir ölkəmizdə gimnastika idman növləri sürətlə inkişaf edir. Azərbaycan Gimnastika Federasiyası (AGF) mötəbər tədbirlərə uğurla ev sahibliyi etməklə böyük təcrübə toplayıb. Hazırda ölkəmiz Beynəlxalq Gimnastika Federasiyasının (FIG) 82-ci Konqresinə ev sahibliyi edir.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti Altay Həsənov dekabrın 3-də FIG-nin Bakıda təşkil olunan 82-ci Konqresi zamanı jurnalistlərə müsahibəsində deyib.

Ötən il ölkəmizdə FIG Şurasının iclasının təşkil olunduğunu xatırladan A.Həsənov bildirib: “Qonaqların dediklərinə görə, Konqres uğurla keçirilir və AGF bütün məsələləri yüksək səviyyədə təşkil edib. İnanıram ki, Konqresdə qəbul olunmuş qərarlar dünyada gimnastikanın inkişafına böyük təkan verəcək. Bakıda belə tədbirlərin təşkili bizi çox sevindirir. Gələn il ölkəmiz bədii gimnastika üzrə dünya çempionatına, digər növlər üzrə Avropa birinciliklərinə və dünya kuboku yarışlarına ev sahibliyi edəcək. AGF-in qrafiki çox dolğundur. Ümid edirəm ki, həmişə olduğu kimi, bu məsələlərin də öhdəsindən layiqincə gələcəyik. Gələn il dünya gimnastikasının ürəyi Bakıda döyünəcək. Azərbaycan artıq gimnastikada öz sözünü deyib. Bizim təşkilatçılığımıza yüksək səviyyədə qiymət verirlər. Təsadüfi deyil ki, AGF ötən il də FIG tərəfindən dünyada ən yaxşı federasiyalar arasında yer almışdı”.

Federasiyanın vitse-prezidenti vurğulayıb ki, on il bundan əvvəl Azərbaycanda gimnastika növləri arasında ən çox inkişaf edən bədii gimnastika idi və biz buna böyük önəm verirdik. “Bakı 2015” ilk Avropa Oyunları ərəfəsində digər növlərin də inkişaf etdirilməsi barədə qərar qəbul olundu. Bir az çətinliklərimiz var, kadr ehtiyatı azdır. Ancaq biz bu istiqamətdə işlərimizi davam etdiririk. İnanıram ki, bütün bunların öhdəsindən gələcəyik. Nəticələrimiz hələ qabaqdadır.

**AZƏRTAC**

*Noha Abuşabana:*

# Gələn il Bakıda keçiriləcək dünya çempionatını səbirsizliklə gözləyirəm



**Bakıda gimnastika üzrə irimiqyaslı yarışların təşkili idmanın bu növünün təkcə Avropada deyil, bütün dünyada inkişafına təkan verir.**

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Beynəlxalq Gimnastika Federasiyasının (FIG) Texniki Komitəsinin vitse-prezidenti Noha Abuşabana deyib.

Vitse-prezident bildirib ki, Bakıda keçirilən Beynəlxalq Gimnastika Federasiyasının (FIG) 82-ci Konqresində seçki prosedurana dəyişikliklər, yeni ölkələrin quruma üzv olması, növbəti konqresin yeri, həmçinin maliyyə məsələləri müzakirə olunur. Ümidvaram ki, qəbul olunacaq qərarlar gimnastikanın daha da populyarlaşmasına xidmət edəcək.

“Gələn il Bakı bədii gimnastika üzrə dünya çempionatına ev sahibliyi edəcək. Hamı kimi mən də çempionatı səbirsizliklə gözləyirəm. Həmin çempionatda dünyanın ən güclü gimnastları güclərini nümayiş etdirəcəklər. İndidən deyim ki, bizi maraqlı və həyəcanlı bir yarış gözləyir”, - deyə Noha Abuşabana söyləyib.

Qeyd edək ki, FIG-nin Nizamnaməsinə əsasən, ən yüksək ali orqan sayılan Konqresdə 115-dən çox ölkədən 300-ə yaxın nümayəndə iştirak edir.

**AZƏRTAC**

# Bakıda fiziki məhdudiyyətli şəxslərin X ümumrespublika Yaradıcılıq Sərgi-Yarmarkası keçirilir

## *Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərginin açılışında iştirak edib*

**Dekabrın 3-də Beynəlxalq Əlillər Günü ilə əlaqədar Bakı şəhərində, İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğunda fiziki məhdudiyyətli şəxslərin X ümumrespublika Yaradıcılıq Sərgi-Yarmarkası işə başlayıb. Tədbirin təşkilatçısı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyidir.**



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərginin açılışında iştirak edib, burada nümayiş olunan əl işlərinə baxıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev sərgi barədə ətraflı məlumat verib. Bildirilib ki, üç gün davam edəcək tədbirdə ölkəmizin müxtəlif bölgələrindən fiziki məhdudiyyətli 250 nəfərdən çox şəxsin hörmə, rəsm, toxuma, xalçaçılıq, dulusçuluq-keramika məmulatları, ağac üzərində oyma, müxtəlif incəsənət və məişət nümunələri, bədii tikmələrdən ibarət 1500-dən çox əl işi nümayiş olunur. Sərgidə, eyni zamanda, əl işlərinin satışı təşkil edilib. Bu da əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların yaradıcı əməyinin maddi baxımdan stimullaşdırılması məqsədi daşıyır.









Leyla Əliyeva əl işlərinin müəllifləri olan fiziki məhdudiyyətli şəxslərlə və sağlamlıq imkanları məhdud uşaqlarla görüşüb, onlarla səmimi söhbət edib.

S.Babayev əlilliyi olan insanların istedad və bacarıqlarının cəmiyyətə tanıdılması və dəstəklənməsi, onların yaradıcılıq potensiallarına ictimaiyyətin diqqətinin artırılması məqsədilə təşkil olunan belə tədbirlərə hələ 1990-cı illərdə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə başlandığını vurğulayıb. O, 1998-ci il noyabrın 30-da əlilliyi olan şəxslərin ilk ümumrespublika bədii yaradıcılıq baxış-müsabiqəsinin yekun tədbirində Ulu Öndərin dediyi bu sözləri xatırladıb: “Hər bir insanın cəmiyyətdə özünün daxilində olan imkanlardan istifadə etməsi üçün, öz istedadını nümayiş etdirməsi üçün ona şərait yaratmalıyıq”. Bu, ötən dövrdə dövlətimizin sosial siyasətində öz əməli təsdiqini tapıb. Prezident İlham Əliyevin xüsusi qayğısı ümumən fiziki məhdudiyyətli insanların sosial təminatlarının gücləndirilməsində, onların reabilitasiya və cəmiyyətə inteqrasiya imkanlarının genişləndirilməsində əhəmiyyətli addımların atılmasına imkan yaradıb.



Beynəlxalq Əlillər Gününün cari ildəki mövzusunun “Əlilliyi olan şəxslərin imkanlarının genişləndirilməsi, inklüzivliyin və bərabərliyin təmin edilməsi” olduğunu qeyd edən nazir bu gün əlilliyi olan insanların reabilitasiyası, öz fiziki məhdudiyyətlərinə qalib gələrək daim özlərinə güclü inam hissi ilə ictimai-mədəni həyatda fəal iştirak etmələri üçün çoxşaxəli işlər aparıldığını deyib. O, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın mühüm sosial əhəmiyyət kəsb edən nəcib və xoşməramlı layihə və təşəbbüslərinin digər həssas qruplarla yanaşı, əlilliyi olan insanları da əhatə etdiyini vurğulayıb. S.Babayev Heydər Əliyev Fondunun fiziki məhdudiyyətli insanların sosial reabilitasiyası işlərinə dəstək tədbirlərinin əhəmiyyətini diqqətə çatdırıb.

Nazir BMT-nin “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyasına uyğun olaraq ölkəmizdə müvafiq qanunvericiliyin təkmilləşdirildiyini qeyd edib. Bu məqsədlə yeni qəbul olunan “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Qanunun fiziki məhdudiyyətli insanlarla bağlı mütərəqqi dünya təcrübəsindən irəli gələn yanaşmaları əks etdirdiyini bildirib.

Tədbirdə çıxış edən BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai deyib ki, təmsil etdiyi qurum tərəfindən Beynəlxalq Əlillər Gününün təsis edilməsində əsas məqsəd bu kateqoriyadan olan insanlara cəmiyyətin diqqətinin artırılmasıdır. O, BMT-nin “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyasına qoşulan Azərbaycanda bu sənəddən irəli gələn öhdəliklərin icrası, əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiya imkanlarının artırılması üçün aparılan işlərin təqdirəlayiq olduğunu qeyd edib.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kafedra müdiri, xalçaçı-rəssam, əl işlərinin qiymətləndirilməsi üzrə münsiflər heyətinin sədri Məmmədhüseyn Hüseynov fiziki məhdudiyyətli şəxslərin hər birinin müsabiqədə qələbəyə layiq olduğunu, qalibləri müəyyənləşdirərkən çətinlik çəkdiklərini bildirib.

Sonra xüsusi bacarıqları ilə fərqlənən iştirakçılara mükafatlar təqdim edilib.

Sərgi-yarmarka çərçivəsində, həmçinin nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə-Reabilitasiya Mərkəzinin və uşaqlar üçün sosial xidmət müəssisələrinin sakinlərindən ibarət rəqs qruplarının çıxışı olub.

**AZƏRTAC**

# Bakıda Regional Rabitə Birliyinin Rabitə Administrasiyaları Başçıları Şurasının 54-cü iclası keçirilib



**“Bakutel 2018” XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgi-konfransı çərçivəsində dekabrın 3-də Bakıda Regional Rabitə Birliyinin (RRB) Rabitə Administrasiyaları Başçıları Şurasının 54-cü iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda RRB Rabitə Administrasiyalarının nümayəndə heyətlərinin Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) builki Səlahiyyətli Konfransında fəaliyyəti ilə bağlı yekunlar, eləcə də RRB İcraiyyə Komitəsinin Rabitə Administrasiyaları Başçıları Şurasının qərarlarının həyata keçirilməsi üzrə fəaliyyəti kimi əsas məsələlər müzakirə olunub.

Tədbirdə RRB-nin tamhüquqlu üzvlərinin - Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan, Türkmənistan və RRB müşahidəçiləri - Latviya və Sloveniya rabitə administrasiyalarının, “İntersputnik” Beynəlxalq Kosmik Rabitə Təşkilatının, eləcə də, “EUTELSAT” Beynəlxalq Peyk Təşkilatının və Beynəlxalq Telekommunikasiya İttifaqının MDB ölkələri üzrə nümayəndə heyətləri iştirak edib.

İclasa RRB Şurası və Koordinasiya Şurasının sədri, Rusiya Federasiyasının Rəqəmli inkişaf, rabitə və kütləvi kommunikasiyalar naziri Konstantin Noskov sədrlik edib.

Tədbir iştirakçılarını salamlayan Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə ötən iclasda Azərbaycan tərəfinin Bakıda növbədənkənar iclasın keçirilməsi təklifini dəstəklədiklərinə görə RRB-nin üzv dövlətlərinə təşəkkürünü bildirib.

“Bugünkü iclasda əsas müzakirə edəcəyimiz məsələlərdən biri 29 oktyabr - 16 noyabr tarixlərində Dubayda keçirilmiş Beynəlxalq Telekommunikasiya İttifaqının Səlahiyyətli Konfransının yekunlarıdır. Bu hadisə təmsil olunduğumuz sektor üçün çox vacibdir və məhz bu səbəbdən biz bu cür təcili iclasın keçirilməsini zəruri saydıq”, - deyə nazir müavini bildirib.

E.Vəlizadə RRB-yə daxil olan administrasiyaların Səlahiyyətli Konfransda səmərəli birgə fəaliyyətini, eyni zamanda RRB-nin İcraiyyə Komitəsinin onların fəaliyyətinin əlaqələndirilməsi üzrə işini yüksək qiymətləndirib.

“Fürsətdən istifadə edərək, Rusiya Federasiyasını seçkilərdə qazandığı gözəl nəticələr münasibəti ilə təbrik edirəm. Eyni zamanda, Azərbaycan Respublikasının BTİ-nin Şurasına yenidən seçilməsini dəstəkləyən bütün tərəflərə minnətdarlığımı bildirirəm. Nəticədə Azərbaycan da, Rusiya kimi, Regional Rabitə Birliyinin tarixində ardıcıl olaraq ikinci dəfə BTİ Şurasına üzv seçilən ölkə oldu. Bizim rabitə administrasiyamızın nümayəndəsinin BTİ-nin Radio Tənzimləmə Komitəsinə seçilməsi də yüksək nailiyyətdir”, - deyə nazir müavini vurğulayıb.

E.Vəlizadə seçkilər zamanı Azərbaycanın ədalətli və layiqli təşviqat kampaniyası apardığını qeyd edib. “Biz birlikdə Şurada təmsilçiliyimizi gücləndirməyə çalışırdıq. Qazanılan nəticə bizim RRB-də birgə fəaliyyətimizin bəhrəsidir. Bugünkü iclasda bizim RRB çərçivəsində birgə fəaliyyətimizə aid olan digər məsələlər də müzakirə olunacaq. Əminəm ki, iclasda qəbul ediləcək qərarlar rabitə administrasiyalarımız arasında faydalı əməkdaşlığı daha da genişləndirəcək”, - deyən nazir müavini iclas iştirakçılarına uğurlu və səmərəli iş arzulayıb.

İclas iştirakçıları RRB nümayəndə heyətlərinin BTİ Səlahiyyətli Konfransında işini yüksək qiymətləndirib. Bildirilib ki, BTİ katibliyi 29 təklif əsasında builki Səlahiyyətli Konfransda baxılmaq üçün 35 sənəd tərtib edib.

Məlumat verilib ki, RRB tərəfindən Səlahiyyətli Konfransın ilk plenar iclasında BTİ-nin 2020-2023-cü illər üçün strateji və maliyyə planlarının hazırlanması üzrə ümumi təklifindən biri təsdiq edilib.

İclasda müzakirə edilən digər vacib məsələ RRB iştirakçı ölkələrində rəqəmli inkişaf ilə əlaqədar olub. Bu məsələ ilə bağlı fikir mübadiləsi prosesində iştirakçılar rəqəmli inkişafla bağlı prioritet vəzifələri və həll yollarını müzakirə edib. Bundan başqa, informasiya cəmiyyətinin inkişafı üzrə Azərbaycan rabitə administrasiyası tərəfindən hazırlanan RRB iştirakçı ölkələrində rəqəmli bazarın inkişafı üzrə göstəricilərin hesablanması metodikası nəzərdən keçirilib.

İclas iştirakçılarının müzakirə etdiyi növbəti mühüm məsələ RRB iştirakçı ölkələrində Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi olub.

Həmçinin 1997-ci il 17 yanvar tarixli “Mobil rabitə sistemlərinin inkişafı və istifadəsində əməkdaşlıq haqqında” Sazişə düzəlişlərin edilməsi ilə bağlı məsələyə də baxılıb.

Məlumat üçün bildirək ki, MDB hökumət başçılarının cari il noyabrın 2-də Astanada keçirilən iclasında “Mobil rabitə sistemlərinin inkişafı və istifadəsində əməkdaşlıq haqqında” Sazişə düzəlişlər haqqında Protokol imzalanıb.

İclasda həmçinin RRB iştirakçı ölkələrində informasiya cəmiyyətinin inkişafına xidmət məqsədilə mövcud olan Yüksək səviyyəli işçi qrupunun əsasnaməsinə düzəlişlər edilib. İşçi qrupun sədrinin daimi əsaslarla fəaliyyəti Əsasnamədə təsbit olunub. Şuranın qərarına əsasən Azərbaycan nümayəndəsi Elmir Vəlizadə işçi qrupun sədri təyin edilib.

Tədbirin sonunda BTİ-nin Səlahiyyətli Konfransının işində fəal iştirak etmiş şəxslər orden və medallarla, həmçinin fəxri fərmanlarla təltif olunub. Təltif olunanlar sırasında, əsasən Rusiya və Azərbaycan nümayəndələri, həmçinin digər administrasiyaların və İcraiyyə Komitəsinin təmsilçiləri olub.

Rusiya Federasiyasının Rəqəmli inkişaf, rabitə və kütləvi kommunikasiyalar naziri Konstantin Noskov və Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə RRB-nin ordeni ilə təltif ediliblər.

**AZƏRTAC**

# Ümummilli liderin xalqa ləyaqətlə xidmət etmək nümunəsi

**Müstəqilliyini bərpa etdiyi ilk illərdə Azərbaycan çox mürəkkəb və çətin dövrünü yaşayırdı, ölkədə vəziyyət ürəkaçan deyildi. Bir tərəfdən Ermənistanın hərbi təcavüzü davam edirdi, ərazilərimiz işğal olunurdu, soydaşlarımız öz yurd-yuvalarından didərgin düşürdü, digər tərəfdən isə SSRİ-nin çökməsi ilə əlaqədar iqtisadiyyat iflic vəziyyətində idi, daxili sabitlik pozulmuş, müstəqilliyin itirilməsi təhlükəsi yaranmışdı.**

Ümummilli lider Heydər Əliyev xalqın tələbi və iradəsi ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, respublikamız haqqında yaradılan mənfi imici dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq üçün ölkəmiz ətrafındakı informasiya blokadasının yarılmasını, dünya siyasətində aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsini və inkişaf etdirilməsini qarşıya təxirəsalınmaz vəzifə kimi qoydu. Dahi rəhbər Azərbaycanda cərəyan edən daxili proseslərə də ciddi diqqət yetirdi, narahatlıq doğuran mövcud vəziyyəti nəzərə alaraq ölkəmizin milli mənafelərinin qorunmasına yönələn davamlı tədbirlər həyata keçirdi.

İlk növbədə, ulu öndər ölkədə vətəndaş müharibəsinin qarşısını aldı. Bunun ardınca dünyada qurucu və sülhsevər lider kimi tanınan Heydər Əliyev beynəlxalq nüfuzuna arxalanaraq işğalçı Ermənistan ilə atəşkəsə nail oldu. Yaradılmış zəruri sülh fasiləsində Azərbaycan Ordusu yenidən təşkil edildi, nizam-intizam gücləndirildi. Bu dövrdə iqtisadi islahatların reallaşdırılması da prioritet vəzifə kimi qarşıya qoyuldu və mövcud sahədə mühüm uğurlar əldə edildi. Yeri gəlmişkən, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Ramiz Mehdiyev “Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri” adlı konseptual məqaləsində ulu öndərin yenidən hakimiyyətə qayıdışından sonra həyata keçirilən iqtisadi strategiyanın əsas məqamlarından bəhs edərək bildirir: “Azərbaycanın təkcə dövlətçilik deyil, həm də iqtisadi inkişaf tarixinin ən parlaq və şərəfli dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Həmin dövrün siyasi və iqtisadi aspektlərinin öyrənilməsi hər zaman öz aktuallığını saxlayır. Bu, gələcək inkişafımızın əsas istiqamətlərini müəyyən etmək və bir daha dəqiqləşdirmək baxımından zəruridir. Heydər Əliyevin “İqtisadiyyatı qüdrətli olan dövlət hər şeyə qadirdir” fikri bir daha təsdiq edir ki, ümummilli lider milli iqtisadiyyatımızın inkişafına dövlət quruculuğunun mühüm tərkib hissəsi kimi hər zaman böyük önəm vermişdir”.

Məhz buna görə də ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi ilk dövrdən müasir dünya düzəninin sosial-iqtisadi inkişaf meyillərini uzaqgörənliklə qiymətləndirərək, çağdaş cəmiyyətin qəbul etdiyi inkişaf yolunu seçdi. Bu yol isə genişmiqyaslı torpaq islahatından, iqtisadiyyat üzərində dövlət inhisarçılığının aradan qaldırılmasından, sahibkarlığın inkişaf etdirilməsindən və iqtisadiyyatın liberallaşdırılmasından başlayırdı.

Müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə Heydər Əliyevin iqtisadi siyasətinin ən mühüm uğurlarından biri 1994-cü ildə imzalanan “Əsrin müqaviləsi”nin hazırlanması və təsdiqi oldu. Bununla da ulu öndərin müəllifi olduğu neft strategiyasının əsası qoyuldu. Bu strategiya çərçivəsində həyata keçirilmiş tədbirlər, o cümlədən Dövlət Neft Fondunun yaradılması məhz davamlı inkişafın təmin edilməsinə, dövlətimizin iqtisadi və sosial dayaqlarının möhkəmləndirilməsinə yönəldildi.

Ümummilli liderin rəhbərliyi altında reallaşdırılan siyasi, sosial-iqtisadi islahatlar nəticəsində müstəqil Azərbaycan dövlətçiliyinin əsası və onun gələcək inkişafı üçün möhkəm təməllər üzərində qurulan baza son 15 ildə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkəmiz gündən-günə daha da güclənir, qüdrətlənir. Akademik Ramiz Mehdiyevin yuxarıda adıçəkilən məqaləsində dövlətimizin başçısının fəaliyyətində iqtisadi sahəyə necə mühüm önəm verməsi dəqiq ifadəsini tapmışdır: “Bütün planlarımızın həyata keçirilməsi üçün başlıca şərt iqtisadi potensialdır”. Bu, Prezident İlham Əliyevin səsləndirdiyi əsas tezislərdən biridir. Təsadüfi deyildir ki, hazırda Azərbaycanda dövlət idarəçiliyi əsas etibarilə “güclü iqtisadiyyat-güclü dövlət” prinsipinə əsaslanır. İqtisadi diplomatiyanın imkanlarından maksimum istifadə edilməsi də bu prinsipin reallaşdırılmasına xidmət edir”.

Bu prinsipə xüsusi yanaşmanın nəticəsidir ki, son 15 ildə iqtisadiyyatda böyük uğurlar əldə edilib. Bunun sayəsində də Azərbaycan daxildə sabit siyasi vəziyyətə, daimi islahatlarla təkmilləşdirilən və cəmiyyətin maraqlarına cavab verən siyasi sistemə, dünya dövlətləri arasında özünə layiqli yer tutan, regionda lider mövqeyinə yüksələn bir ölkəyə çevrilib.

Azərbaycanın əldə etdiyi uğurların real mənzərəsini görmək üçün bir sıra iqtisadi və maliyyə göstəricilərinə diqqət yetirmək kifayətdir. Belə ki, son 15 il ərzində ümumi daxili məhsulda özəl sektorun payı 80 faizi ötüb, makroiqtisadi sabitlik möhkəmlənib, rəqabətqabiliyyətliliyinə görə Azərbaycan iqtisadiyyatı MDB məkanında birinci yerə yüksəlib. Bu dövrdə Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artıb, qeyri-neft ixracı 4,1 dəfə çoxalıb. Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan 46 milyard dollara çatıb. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulub.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilib, 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilib. 2014-cü il sentyabrın 20-də Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində böyük rol oynayacaq Cənub Qaz Dəhlizinin təməli qoyulub. Uzunluğu 3500 kilometr, dəyəri 40 milyard dollardan çox olan bu qlobal layihənin icrası sürətlə həyata keçirilərək, bu il mayın 29-da uğurla yekunlaşdırılıb. Bundan bir ay sonra isə həmin dəhlizin tərkib hissəsi olan TANAP boru kəmərinin Bakıda rəsmi açılış mərasimi keçirilib.

1994-cü il sentyabrın 20-də Bakıda imzalanan “Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş”in (“Əsrin müqaviləsi”) müddəti ötən il sentyabrın 14-də 2050-ci ilə qədər uzadılıb. Yeni şərtlərə görə, SOCAR-ın payının 11 faizdən 25 faizə qaldırılması, mənfəət neftinin 75 faizinin Azərbaycana verilməsi nəzərdə tutulub. Bundan əlavə, 8 il ərzində xarici investorlar tərəfindən ölkəyə bərabər hissələrlə bonus kimi 3,6 milyard dollar ödəniləcəyi qərara alınıb. Müqavilənin müddətinin uzadılması Azərbaycanda uzun illər bundan sonra da neftin hasilat səviyyəsinin sabit qalmasına, neft sektoruna xarici investisiya qoyuluşunun təmin olunmasına imkan yaradıb.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində də böyük işlər görülüb. Təməli 2007-ci ildə qoyulan Bakı-Tbilisi-Qars dəmir yolunun ötən il oktyabrın 30-da Bakıda rəsmi açılışı olub. Azərbaycanın Rusiya Federasiyası, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları tikilib. Bu il sentyabrın 18-də 204 kilometr uzunluğunda yeni Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistral avtomobil yolunun istifadəyə verilməsi ilə Azərbaycan ərazisində Şimal-Cənub Nəqliyyat Dəhlizi layihəsinin reallaşması üçün bütün işlər başa çatdırılıb. Azərbaycan siyasi, iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik həmin beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak etməklə Avrasiyada mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrilib. Xəzər dənizində ən böyük beynəlxalq dəniz limanı - Ələt Dəniz Ticarət Limanının fəaliyyətə başlaması da respublikamızın mühüm tranzit və logistika mərkəzi kimi tanınmasında mühüm rol oynayıb.

Yeni tipli dövlət və siyasət xadimi İlham Əliyevin prezidentliyi dövründə respublikamız dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulub. 2010-cu ilin fevralın 8-də Azərbaycanın ilk telekommunikasiya peyki “Azerspace-1”, 2014-cü ildə ikinci - Yer səthini müşahidə edən “Azersky” peyki, bu ilin sentyabrında isə daha bir telekommunikasiya peyki - “Azerspace-2” orbitə çıxarılıb.

Dövlətimizin başçısı İlham Əliyevin prezidentlik fəaliyyətində xalqa ləyaqətlə xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq, dövlətçiliyimizi hər vasitə ilə möhkəmləndirmək prinsipi əsas rol oynayır. Məhz elə buna görə də xalqımız 2008-ci il oktyabrın 15-də, 2013-cü il oktyabrın 9-da və 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində Heydər Əliyev siyasətinin layiqli davamçısına, sabitliyə, əmin-amanlığa, tərəqqiyə, quruculuğa səs verib. Bu, həm də onu göstərir ki, Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur.

**İlyas ƏSGƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru.**

# Küveytin Baş naziri FANA konfransının iştirakçıları ilə görüşüb

## *OANA-nın prezidenti, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov görüşdə çıxış edib*



**Dekabrın 2-də Küveytin Baş naziri Cabir Mübarək əl-Həməd əs-Sabah bu ölkənin dövlət xəbər agentliyinin (KUNA) ev sahibliyi ilə keçirilən Ərəb Xəbər Agentlikləri Federasiyasının (FANA) Baş Assambleyasının 46-cı konfransının iştirakçılarını, o cümlədən konfransa müşahidəçi kimi dəvət olunmuş Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) prezidenti, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanovu qəbul edib.**

Müasir dövrdə informasiyanın düzgün çatdırılmasında xəbər agentliklərinin üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayan Baş nazir cəmiyyətlərə mənfi təsir göstərən yanlış xəbərlərin qarşısının alınmasında jurnalistləri daha diqqətli olmağa və peşəkarlıq prinsiplərinə daim sadiq qalmağa çağırıb. Cabir Mübarək əl-Həməd əs-Sabah qeyd edib ki, hazırda dünyada islamafobiya halları və terroru İslam dini ilə bağlamaq cəhdləri geniş yayılıb. Baş nazir dezinformasiya və yanlış məlumatlandırma siyasətinə qarşı mübarizədə OANA və FANA kimi regional media təşkilatlarının fəaliyyətinin təqdirəlayiq olduğunu bildirib.

Görüşdə bir sıra ərəb dövlətlərinin xəbər agentliklərinin rəhbərləri çıxış edərək Baş nazir Cabir Mübarək əl-Həməd əs-Sabahın toxunduğu məsələlərin aktuallığını və mövcud təhdidlərin, çağırışların qarşısının alınmasında xəbər agentlikləri arasında əməkdaşlığın inkişafının əhəmiyyətindən danışıblar.

OANA-nın prezidenti, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov çıxışında Azərbaycanla Küveyt arasında əməkdaşlıq əlaqələrinin dövlət rəhbərlərinin müdrik siyasəti nəticəsində daim yüksələn xətlə inkişaf etdiyini, bunun da öz növbəsində xəbər agentliklərinin üzərinə böyük məsuliyyət qoyduğunu bildirib.

Müasir dövrdə qarşıya çıxan çağırışlara cavab vermək üçün agentliklər arasında əlaqələrin önəmini bir daha vurğulayan Aslan Aslanov AZƏRTAC-la KUNA-nın dostluq münasibətlərini və sıx əməkdaşlığını buna ən yaxşı nümunə adlandırıb.

Bu fikirləri bölüşən Cabir Mübarək əl-Həməd əs-Sabah Küveyt ilə Azərbaycan arasında münasibətlərin inkişafında dövlət başçılarının böyük rolu olduğunu, xəbər agentliklərinin də öz ölkələrinin nailiyyətlərini təbliğ edərək dünyaya yaymaq üçün əməkdaşlığı gücləndirməsinin vacibliyini vurğulayıb.

Baş nazir OANA-nın prezidenti Aslan Aslanovun FANA-nın konfransında iştirakından məmnunluğunu ifadə edib.

Sonda Cabir Mübarək əl-Həməd əs-Sabah görüş iştirakçıları ilə xatirə şəkli çəkdirib.

**AZƏRTAC**

# “Azərbaycan Respublikası Xatirə Kitabı”nın xüsusi buraxılışının təqdimatı olub



**Ermənilər tərəfindən xalqımıza qarşı dəfələrlə qanlı cinayətlər törədilib. Ermənistanın əsassız ərazi iddiaları, torpaqlarımızın işğal edilməsi soydaşlarımızın doğma ata-baba torpaqlarından didərgin düşməsinə səbəb olub. Rəsmi sənədlərə əsasən, Dağlıq Qarabağda elan olunmamış müharibə nəticəsində 3 mindən çox soydaşımız itkin düşüb, əsir və girov götürülüb.**

AZƏRTAC xəbər verir ki, bu barədə mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev “Azərbaycan Respublikası Xatirə Kitabı”nın xüsusi buraxılışının təqdimat mərasimində danışıb.

“Əsir və girov götürülmüş vətəndaşlarımıza ermənilər tərəfindən insanlıqla bir araya sığmayan işgəncələr verilib, görünməmiş vəhşiliklər törədilib. Bu insanların xatirəsinin əbədiləşdirilməsi və beynəlxalq ictimaiyyət üçün mühüm tarixi sənəd funksiyasını yerinə yetirəcək faktlara istinadla nəşrlərin hazırlanması məqsədilə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Respublika Xatirə Kitabı redaksiyası fəaliyyətə başlayıb. Ötən müddətdə İkinci Dünya müharibəsində həlak olmuş azərbaycanlılar, 20 Yanvar və Xocalı faciəsində, Qarabağ müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə həlak olmuş, itkin düşmüş, əsir götürülmüş vətəndaşlarımız, Milli qəhrəmanlarımız haqqında çoxcildlik ensiklopediya hazırlanıb. Xatirə kitabının 16 cildi çap olunub, 17-ci cildi nəşrə hazırlanır”, - deyə mədəniyyət nazirinin birinci müavini qeyd edib.

Kitabın əhəmiyyətini yüksək qiymətləndirən Vaqif Əliyev bildirib ki, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu ilə birgə Xatirə Kitabı dörd cildlik olmaqla xüsusi nəşrə hazırlanır. Bu gün həmin kitabın birinci cildinin təqdimat mərasimi keçirilir. Xüsusi buraxılışlarda Qarabağ münaqişəsi zamanı itkin düşmüş, əsir və girov götürülmüş 3 mindən çox vətəndaşımız haqqında Azərbaycan və ingilis dillərində ensiklopedik məlumatlar yer alacaq. Birinci cilddə 921 nəfər barədə məlumatlar əksini tapıb.

Azərbaycanın ərazi bütövlüyünə təcavüz edən erməni daşnaklarının azərbaycanlılara qarşı törətdiyi cinayətlərin həmişə öz xüsusi amansızlığı ilə seçildiyini diqqətə çatdıran kitabın baş redaktoru Nəzakət Məmmədova deyib: “Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası ilə birlikdə aparılan araşdırmalar zamanı erməni vandallarının soydaşlarımıza qarşı törətdiyi cinayətlər, ağır işgəncələr və məqsədyönlü şəkildə aparılan soyqırımı siyasəti bütün detalları ilə araşdırılıb. Erməni millətçilərinin əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarına qarşı törətdiyi cinayətlərin dünya ictimaiyyətinə çatdırılması hər birimizin mənəvi borcudur. Məhz bu məqsədlə hazırladığımız 3 min 875 nəfərin taleyindən bəhs edən Respublika Xatirə Kitabının dörd cildlik xüsusi buraxılışının birinci cildi oxuculara təqdim olunur”.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu rəhbərinin müavini Eldar Səmədov çıxış edərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yaratdığı humanitar problem, əsir düşmüş və girov götürülmüş insanlarla bağlı məlumat verib. O bildirib ki, kitabın nəşrə hazırlanması zamanı itkin düşmüş şəxslərin siyahısının dəqiqləşdirilməsi Komissiya sədrinin şəxsi nəzarəti ilə aparılıb. Kitab Vətən torpaqları uğrunda həlak olmuş, itkin düşmüş insanların xatirəsinə dövlətimizin başçısı tərəfindən göstərilən diqqətin bariz nümunəsidir. Bu günə olan məlumata əsasən, Dövlət Komissiyasında 3 min 888 nəfər itkin düşmüş şəxs kimi qeydiyyatdan keçib.

Yeni nəşrin ölkəmizin ictimai-siyasi və mədəni həyatında xüsusi əhəmiyyət kəsb etdiyini bildirən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev Xatirə kitabı redaksiyasının çox nəcib və müqəddəs bir missiyanı yerinə yetirdiyini söyləyib.

Redaksiyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində həlak olmuş, itkin düşmüş və girov götürülmüş vətəndaşlarımızla bağlı materialların toplanıb dərc edilməsi ilə bağlı böyük missiyanı üzərinə götürdüyünü qeyd edən Ə.Mehdiyev deyib: “Bu, olduqca vacib və əhəmiyyətli işdir. Azərbaycan torpaqlarının erməni silahlı birləşmələri tərəfindən işğal edilməsi bizim ən ağrılı problemimizdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin bütün fəaliyyəti bu problemin həllinə yönəlib. Burada həm maddi ziyan, həm mənəvi məhrumiyyətlər, bütün itkilər ən vacib məsələlər kimi gündəlikdə dayanır, bütün qüvvələrimiz bu məsələlərin həlli istiqamətində səfərbər olunub. Dövlətimiz bu gün ordu quruculuğuna, münaqişə ilə bağlı meydana çıxan problemlərin həllinə böyük diqqət göstərir. Dövlətimizin başçısının diqqət və qayğısı nəticəsində şəhid ailələri və müharibə əlilləri yeni mənzillərlə təmin edilir. İndiyədək bu kateqoriyadan olan insanlara 5 min 500-dən çox fərdi ev və mənzil paylanılıb, ilin sonunadək də təxminən 500 mənzilin verilməsi nəzərdə tutulur”.

Ə.Mehdiyev vurğulayıb ki, ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə başlanmış bu işlər Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezidentin tapşırığına əsasən, son 15 ildə şəhid ailələrinə və müharibə əlillərinə 6 minə yaxın minik avtomobili verilib, onlar hərtərəfli qayğı ilə əhatə olunub.



“Xatirə kitabının nəşr edilməsi dövlətimizin başçısının bu məsələlərə daha bir qayğısı kimi qiymətləndirilməlidir. Bu, ilk nəşrdir ki, Qarabağ münaqişəsi dövründə itkin düşmüş, həlak olmuş insanlar haqqında məlumatları ictimaiyyətə çatdırır. Belə bir nəşrin ərsəyə gəlməsi bizim həm mənəvi borcumuzdur, həm də şəhidlərimizin və itkin düşmüş vətəndaşlarımızın xatirəsinə ehtiramın ifadəsidir. Kitabın digər mühüm əhəmiyyəti ondadır ki, burada hər bir insan haqqında toplanmış məlumatlar gələcək tədqiqatlar üçün baza yaradır. Nəşrdə yer alan məlumatlar hər hansı əsərin və filmin mövzusu ola bilər” deyən Ə.Mehdiyev kitabın ərsəyə gəlməsində zəhməti olan hər kəsə təşəkkürünü bildirib.

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının tarix kafedrasının müdiri Firdovsiyyə Əhmədova, Əməkdar Elm Xadimi Qəzənfər Paşayev və başqaları kitabla bağlı fikirlərini bölüşüb, yeni nəşrin əhəmiyyətini vurğulayıblar.

Çıxış edənlər Xatirə kitabının nəşrinə göstərdiyi böyük diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.

**AZƏRTAC**

# Küveytdə Ərəb Xəbər Agentlikləri Təşkilatı Baş Assambleyasının 46-cı konfransı keçirilib

**Dekabrın 2-3-də Küveyt Dövlətinin paytaxtı əl-Küveyt şəhərində Ərəb Xəbər Agentlikləri Təşkilatının (FANA) Baş Assambleyasının 46-cı konfransı keçirilib.**



AZƏRTAC xəbər verir ki, Küveytin Baş naziri Cabir Mübarək əl-Həməd əs-Sabahın himayəsi ilə keçirilən tədbirdə üzv agentliklərin rəhbərləri, o cümlədən Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) və Dünya Xəbər Agentlikləri Konqresinin prezidenti, Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov və agentliyin ərəb dilində informasiya bölməsinin müdiri Şıxəli Əliyev iştirak ediblər.

Konfransın açılışında çıxış edən Küveytin informasiya və gənclər üzrə dövlət naziri Məhəmməd əl-Cəbri bu gün dünyada sürətlə cərəyan edən hadisələrin, ortaya çıxan çağırışların mediaya təsirsiz ötüşmədiyini, bəzi mənfi təmayüllərin yaranmasına səbəb olduğunu bildirib. Nazir qeyd edib ki, xəbər agentlikləri cəmiyyətlərin sabitliyini pozmağa, insanlarda çaşqınlıq yaratmağa yönəlmiş yalan xəbərlərə qarşı sipər olmalıdır.

Küveytli nazir AZƏRTAC-ın İdarə Heyətinin sədri, OANA-nın prezidenti Aslan Aslanova dəvəti qəbul edərək konfransda iştirak etdiyinə görə təşəkkürünü bildirib.



Daha sonra FANA-nın prezidenti, Küveytin KUNA xəbər agentliyinin İdarə Heyətinin sədri Şeyx Mübarək Dueyc əl-İbrahim əs-Sabah və FANA-nın baş katibi Fərid Əyyar çıxış edərək konfransda müzakirə olunacaq məsələlər barədə məlumat verib, iştirakçıları fəal diskussiyalara çağırıblar.

Açılış mərasimindən sonra nümayəndələr KUNA-nın təşkil etdiyi fotosərgi ilə tanış olublar.

Sonra konfrans işçi iclaslarla davam edib.

Birinci işçi iclasda FANA-nın illik fəaliyyəti barədə məruzə təqdim edilib və qarşıda duran problemlər, o cümlədən təşkilatın büdcəsi, treninq proqramlarında iştirak məsələləri barədə müzakirələr aparılıb.

İclasda çıxış edən OANA-nın və Dünya Xəbər Agentlikləri Konqresinin prezidenti, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov regional media qurumlarının səmərəli əməkdaşlığından danışıb. O, AZƏRTAC ilə Küveytin KUNA, Səudiyyə Ərəbistanının SPA agentlikləri arasında dostluq və əməkdaşlıq əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini vurğulayaraq əmin olduğunu bildirib ki, Küveytdə yüksək səviyyədə təşkil edilən konfrans həm FANA və OANA, həm də ərəb xəbər agentlikləri ilə AZƏRTAC arasında əməkdaşlığın daha da güclənməsinə təkan verəcək.

“KUNA agentliyinin sədrliyi dövründə FANA çox mühüm irəliləyişlərə nail olub. Bu uğurda AZƏRTAC-ın yaxın dostları KUNA xəbər agentliyinin İdarə Heyətinin sədri Şeyx Mübarək Dueyc əl-İbrahim əs-Sabahın və peşəkar media mütəxəssisi, FANA-nın baş katibi Fərid Əyyarın ölçüyəgəlməz xidmətləri var. Onlar nəinki FANA-nın, habelə Dünya Xəbər Agentlikləri Konqresi Şurasının, OANA-nın və digər regional media təşkilatlarının fəaliyyətinə də dəyərli töhfələr verir”, - deyə Aslan Aslanov qeyd edib.

OANA-nın veb-saytının ərəb dünyası ilə bağlı məlumatların daha geniş coğrafiyada yayılması üçün mühüm platforma olduğunu vurğulayan Aslan Aslanov ərəb xəbər agentliklərini burada daha çox informasiya paylaşmağa çağırıb. O, AZƏRTAC-ın OANA-nın daha da təkmilləşdirilməsi, müasir tələblərə cavab verən quruma çevrilməsi üçün daimi baş katiblik ofisinin yaradılması, qurumun təlim akademiyasının təsis edilməsi, maliyyə komissiyasının formalaşdırılması və digər təkliflər irəli sürdüyünü xatırladıb, bununla bağlı ərəb xəbər agentliklərinin fikirlərinin də önəmli olacağını diqqətə çatdırıb.

Hazırda medianın əsas problemlərindən birinə çevrilmiş yanlış xəbərlərin yayılmasının qarşısının alınması yollarına toxunan OANA-nın prezidenti etibarlı xəbər mənbələri olan agentliklərin daha sıx əməkdaşlıq qurmasına, informasiya və təcrübə mübadiləsini gücləndirməsinə ehtiyac olduğunu bildirib.

İşçi iclaslarda bir sıra qərarlar qəbul olunub.

Qeyd edək ki, FANA 1975-ci ildə yaradılıb. Mərkəzi qərargahı Livanda yerləşən bu təşkilat öz sıralarında 18 ərəb xəbər agentliyini birləşdirir. Ərəb Liqasının nəzdində fəaliyyət göstərən FANA-nın məqsədi media qurumlarının əməkdaşlığının gücləndirilməsi və üzv agentliklər arasında təcrübə mübadiləsinin genişləndirilməsidir. Şeyx Mübarək Dueyc əl-İbrahim əs-Sabah 2015-ci ildən FANA-ya sədrlik edir.

Konfransdan əvvəl KUNA-nın Baş direktoru, FANA-nın sədri Şeyx Mübarək Dueyc əl-İbrahim əs-Sabah bu ölkədə səfərdə olan AZƏRTAC-ın İdarə Heyətinin sədri, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) prezidenti Aslan Aslanovla görüşüb.

Görüşdə FANA ilə OANA arasında əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyi qeyd olunub, media sahəsində əlaqələrin gücləndirilməsi yolları barədə fikir mübadiləsi aparılıb. Söhbət zamanı, həmçinin Küveyt-Azərbaycan münasibətlərinə toxunulub. Belə bir yekdil fikir ifadə olunub ki, milli xəbər agentliklərinin əməkdaşlığı iki ölkəni birləşdirən əlaqələrin miqyasına uyğun səviyyədə genişləndirilməlidir.

Aslan Aslanov görüşdən xatirə olaraq Şeyx Mübarək Dueyc əl-İbrahim əs-Sabaha milli ornamentlərlə bəzədilmiş Azərbaycan xalçası və kitablar hədiyyə edib. Kitablardan biri açılışında Azərbaycan Prezidentinin iştirak etdiyi Dünya Xəbər Agentliklərinin Bakı Konqresi barədədir. Konqresdə aparılan müzakirələrdə KUNA-nın Baş direktoru da çıxış edərək medianın aktual problemlərinin həlli barədə faydalı fikirlər səsləndirib. Konqresin materialları nəşrdə Azərbaycan dili ilə yanaşı, ingilis və rus dillərində verilib. Digər kitab isə dünya xəbər agentliklərinin, o cümlədən KUNA-nın təqdim etdiyi fotolar əsasında nəşr olunub.

Görüşdən sonra KUNA agentliyinə müsahibə verən AZƏRTAC-ın İdarə Heyətinin sədri ölkələrimiz və xalqlarımız arasındakı səmimi dostluq əlaqələrindən danışaraq deyib: “Bu əlaqələr xalçanın bir-birinə sıx şəkildə toxunmuş ilmələrinə bənzəyir, qürur hissləri doğurur”.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Küveytə səfərinin çox məhsuldar və işgüzar mühitdə keçdiyini bildirib, göstərilən xoş münasibətə görə minnətdarlığını ifadə edib. Vurğulayıb ki, qarşılıqlı səfərlər və görüşlər medianın inkişafı, müasir modellərin tətbiqi ilə bağlı təcrübə mübadiləsi, xəbər agentlikləri arasında əməkdaşlığın güclənməsi baxımından mühüm əhəmiyyət daşıyır.

**AZƏRTAC**

# Bakıda Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı qeyd edilib

**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) milli bayramı - Müstəqilliyin 47-ci ildönümü münasibətilə dekabrın 3-də bu ölkənin Azərbaycandakı səfirliyi rəsmi qəbul təşkil edib.**




AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət himnləri səsləndirildikdən sonra səfir Məhəmməd Əhməd Hamil Əl-Qubeysi BƏƏ-nin inkişaf tarixi barədə məlumat verib. Bildirib ki, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında hörmət və əməkdaşlıq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlər, ölkə başçılarının qarşılıqlı səfərləri, getdikcə genişlənən ticari-iqtisadi və mədəni əlaqələr, BƏƏ-dən təşrif buyuran turistlərin sayının artması müxtəlif sahələrdə əlaqələrimizin nə dərəcədə möhkəm olmasına dəlalət edir. Səfir ölkələrimiz arasında mövcud olan əlaqələrin genişləndirilməsinə öz töhfəsini verən BƏƏ-Azərbaycan Ticarət Məclisinin artıq üç ildir fəaliyyət göstərdiyini deyib.

Azərbaycan Hökuməti adından Birləşmiş Ərəb Əmirlikləri xalqını bayram münasibətilə təbrik edən iqtisadiyyat naziri Şahin Mustafayev ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu söyləyib. Bildirib ki, Azərbaycan BƏƏ ilə münasibətlərə xüsusi önəm verir. Bu münasibət qarşılıqlı hörmətə, güclü dostluq və qardaşlığa, bunu daha da zənginləşdirən İslam irsinə əsaslanan əlaqələrimiz həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində yüksələn xətt üzrə inkişaf edir və güclənir. Bunu şərtləndirən əsas amil kimi ölkə rəhbərlərinin siyasi iradəsi və yaxın dostluq münasibətlərini xüsusi vurğulamaq lazımdır. Əməkdaşımızın möhkəm hüquqi bazası var - ölkələrimiz arasında 40-dan çox sənəd, saziş imzalanıb. “Made in Azerbaijan” brendi altında məhsullarımızın təşviqi məqsədilə cari il dekabrın 8-11-də Əbu-Dabi və Şarja şəhərlərində ixrac missiyası təşkil ediləcək. Nazir qeyd edib ki, Dubayda Azərbaycan Ticarət Evinin yaradılması istiqamətində işlər artıq başa çatdırılır. Qarşılıqlı etimad, öz növbəsində investisiya əməkdaşlığına müsbət dinamika verib. BƏƏ-nin ölkəmizə yatırdığı 2,1 milyard dollar investisiyanın 1,3 milyardı neft sektoruna, 806 milyonu isə qeyri-neft sektoruna yönəldilib. Azərbaycan tərəfindən isə BƏƏ-yə 330 milyon dollar sərmayə yatırılıb. Azərbaycanda 30-a yaxın Birləşmiş Ərəb Əmirlikləri şirkəti fəaliyyət göstərir. Ölkələrimiz arasında iqtisadiyyatın bir çox sahələrində əməkdaşlıq imkanları genişdir. İnanıram ki, dövlətimizin başçısının müəyyənləşdirdiyi siyasətə uyğun olaraq birgə səylərimiz əsasında Azərbaycan-BƏƏ əməkdaşlığı bundan sonra daha da inkişaf edəcək.

**AZƏRTAC**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2018-ci il tarixli 774 s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2018-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları"ndan çıxarış

## AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE UNİVERSİTETİ

### 2018-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul elan edir:

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | | | | | | Elmlər doktoru proqramı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Doktoranturaya qəbul planı | | | | | Dissertanturaya qəbul planı | | | Doktoranturaya qəbul planı | | | | | Dissertanturaya qəbul planı | | |
| | | Cəmi | o cümlədən: Büdcə hesabına | | Ödənişli əsaslarla | | Cəmi | o cümlədən: büdcə hesabına | ödənişli əsaslarla | Cəmi | o cümlədən: Büdcə hesabına | | Ödənişli əsaslarla | | Cəmi | o cümlədən: Büdcə hesabına | ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 1202.01 | Analiz və funksional analiz | 1 | | 1 | | | 2 | 1 | 1 | | | | | | | | |
| 1203.01 | Kompüter elmləri | 2 | | | 1 | 1 | 3 | 2 | 1 | | | | | | | | |
| 2220.01 | Yarımkeçiricilər fizikası | | | | | | 1 | 1 | | | | | | | | | |
| 2303.01 | Qeyri-üzvi kimya | 1 | 1 | | | | | | | | | | | | | | |
| 2304.01 | Makromalekullar kimyası | | | | | | 1 | 1 | | | | | | | | | |
| 2314.01 | Neft kimyası | 2 | | | 1 | 1 | 4 | 3 | 1 | | | | | | | | |
| 2316.01 | Kimyəvi kinetika və kataliz | 1 | | 1 | | | 2 | 1 | 1 | | | | | | | | |
| 2318.01 | Kompozit materialların kimyası və texnologiyası | 2 | 1 | | | 1 | 2 | 1 | 1 | 2 | | 2 | | | 1 | 1 | |
| 2391.01 | Ekoloji kimya | 1 | | 1 | | | | | | | | | | | 1 | 1 | |
| 2426.01 | Ekologiya (elm sahələri üzrə) | 1 | | | | 1 | 1 | 1 | | | | | | | | | |
| 2507.01 | Geofizika, faydalı qazıntıların geofiziki axtarış üsulları | 1 | | | 1 | | 3 | 2 | 1 | | | | | | | | |
| 2512.01 | Ümumi və regional geologiya | | | | | | 1 | 1 | | | | | | | | | |
| 2517.01 | Litologiya | | | | | | 1 | 1 | | | | | | | | | |
| 2518.01 | Hidrigeologiya | | | | | | | | | | | | | | 1 | 1 | |
| 2521.01 | Neft və qaz yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı | 1 | | 1 | | | 2 | 1 | 1 | | | | | | | | |
| 2523.01 | Quyuların qazılması texnologiyası | 2 | 1 | | | 1 | 2 | 1 | 1 | | | | | | | | |
| 2524.01 | Dağ sənaye və neft-qaz-mədən geologiyası, geofizikası, markşeyder işi və yer təkinin həndəsəsi | | | | | | 1 | 1 | | | | | | | | | |
| 2525.01 | Neft və qaz yataqlarının işlənməsi və istismarı | 2 | | | | 2 | 2 | 1 | 1 | | | | | | | | |
| 2526.01 | Dəniz faydalı qazıntı yataqlarının işlənməsi texnologiyası | 1 | | 1 | | | | | | | | | | | | | |
| 3303.01 | Kimya texnologiyası və mühəndisliyi | 3 | 1 | | 1 | 1 | 2 | 1 | 1 | | | | | | 1 | 1 | |
| 3306.01 | Elektrotexnika, elektrotexnika mühəndisliyi | 1 | | | | 1 | 1 | | 1 | | | | | | | | |
| 3312.01 | Materiallar texnologiyası | | | | | | 2 | 1 | 1 | | | | | | | | |
| 3313.02 | Maşınlar, avadanlıqlar və proseslər | 1 | | 1 | | | 2 | 1 | 1 | | | | | | 3 | 3 | |
| 3314.01 | Tibbi texnologiya | 1 | | | | 1 | 1 | | 1 | | | | | | | | |
| 3331.01 | Robotlar, mexatronika və robot texnikası sistemləri | 2 | | 1 | 1 | | 1 | | 1 | | | | | | | | |
| 3336.01 | Metrologiya və metroloji təminat | 2 | 1 | | | 1 | 2 | 1 | 1 | | | | | | | | |
| 3337.01 | İnformasiya-ölçmə və idarəetmə sistemləri (sahələr üzrə) | 3 | | 1 | 1 | 1 | 2 | 1 | 1 | | | | | | | | |
| 3338.01 | Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi (sahələr üzrə) | 4 | | 1 | 2 | 1 | 3 | 1 | 2 | | | | | | 1 | 1 | |
| 3340.01 | Elektrotexniki sistemlər və komplekslər | 2 | | 1 | | 1 | 1 | | 1 | | | | | | | | |
| 3341.01 | Elektrik stansiyaları(elektrik hissəsi) və elektroenergetik sistemlər | 2 | 1 | | 1 | | 2 | 1 | 1 | | | | | | | | |
| 3342.01 | Sənaye istilik energetikası | 1 | | 1 | | | 1 | | 1 | | | | | | | | |
| 3342.02 | İstilik elektrik stansiyaları(istilik hissəsi) | 2 | 1 | 1 | | | 2 | 1 | 1 | | | | | | | | |
| 3354.01 | Neft-qaz kəmərlərinin, bazalarının və anbarlarının tikilməsi və istismarı | 2 | 1 | | | 1 | 2 | 1 | 1 | | | | | | 1 | 1 | |
| 5304.01 | İqtisadi fəalliyyət növləri | 2 | 1 | | | 1 | 2 | 1 | 1 | 1 | | 1 | | | | | |
| 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | 2 | | 1 | | 1 | 2 | 1 | 1 | | | | | | | | |
| 5312.01 | Sahə iqtisadiyyatı | 1 | 1 | | | | 2 | 1 | 1 | | | | | | | | |
| 5701.01 | Tətbiqi dilçilik | | | | | | | | | 1 | | | | 1 | | | |
| | Cəmi: | 49 | 10 | 13 | 9 | 17 | 58 | 31 | 27 | 4 | | 3 | | 1 | 9 | 9 | |

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya (dissertanturaya) ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (yaxud təhsili ona bərabər tutulan) və elmlər doktoru proqramı üzrə dissertanturaya (uyğun ixtisas üzrə elmlər namizədləri və fəlsəfə doktorları elmi dərəcəsi olan) Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar.

Doktoranturaya (dissertanturaya) qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

**1. Ərizə (ali təhsil müəssisəsinin rektorunun adına yazılır).**
**2. Kadrların şəxsi qeydiyyat vərəqəsi.**
**3. Tərcümeyi-hal.**
**4. 3 ədəd fotoşəkil (3x4 sm ölçüdə).**
**5. İş yerindən xasiyyətnamə.**
**6. İş stajı olanlar üçün əmək kitabçasından çıxarış.**
**7. Çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat.**
**8. Ali təhsil müəssisəsini bitirmək və elmi dərəcə olması haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə) və diploma əlavə (qiymət cədvəlindən çıxarış).**
**9. Şəxsiyyəti təsdiq edən sənədin surəti.**

Diplomun əsli, şəxsiyyət vəsiqəsi və hərbi bilet (çağırışçı vəsiqəsi) şəxsən təqdim edilir.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq iddiasında olanlar ixtisas fənnindən, xarici dildən (rus dili istisna olmaqla) və fəlsəfədən ali təhsil pilləsinin magistratura səviyyəsinin tədris proqramları çərçivəsində qəbul imtahanları verməlidirlər (dissertanturaya qəbul istisna olmaqla).

Sənədlər 03 dekabr 2018-ci il tarixindən 25 dekabr 2018-ci il tarixinədək ADNSU-nun əsas binasında (Azadlıq prospekti, 34) 248-ci otaqda, həftənin I-VI günləri saat 9:00-18:00-a kimi qəbul edilir. Qəbul imtahanları (ixtisas fənnindən, xarici dildən və fəlsəfədən) 2019-ci il yanvar ayının 03-dən yanvar ayının 20-dək keçiriləcəkdir.

Qəbul qaydaları haqqında ətraflı məlumat almaq istəyənlər ADNSU-nun "Doktorantura" şöbəsinə (Azadlıq prospekti, 34, 2-ci mərtəbə, otaq 248, tel: (012) 493-46-24) müraciət edə bilərlər.

**REKTORLUQ.**

## Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu aşağıdakı

# SATINALMANI ELAN EDİR

Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fonduna 2019-cu il üzrə investisiya xidmətlərinin (əməliyyatlarının) göstərilməsi ilə bağlı xidmətlərin satınalınması üzrə xidmət təkliflərinin cəlb olunması.

Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu (bundan sonra - Fond) Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə yaradılan qeyri-kommersiya hüquqi şəxsdir. Fond barədə ətraflı məlumatları http://www.mcgf.az ünvanında yerləşən internet səhifəsindən əldə etmək olar.

Xidmət təkliflərinin cəlb olunması 2 (iki) lotdan ibarətdir:

Lot 1 - Qiymətli kağızlar ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi;

Lot 2 - Qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi və anderraytinqi.

Satınalma üzrə prosedurlar **09 yanvar 2019-cu il tarixində saat 15.00-da** Fondun inzibati binasında təklif zərflərinin açılması ilə başlanılacaqdır.

**Satınalmada iddiaçı kimi iştirak etmək istəyən malgöndərənlər aşağıdakı sənədləri təqdim etməlidir:**

*-Satınalmada iştirak etmək üçün ərizə (hər lot üzrə);*

*-İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*

*-Hər iki lot üzrə ayrıca satınalma təklifi;*

*-Hər iki lot üzrə ayrıca təklifin qiymətinin 1 faizi həcmində təminat (bank zəmanəti);*

*-İddiaçının hüquqi statusunu və iş təcrübəsini əks etdirən sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış, investisiya şirkəti fəaliyyəti üçün lisenziya, VÖEN və s.) notariat qaydasında təsdiq edilmiş surətləri;*

*-Satınalma təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmr);*

*-İddiaçının fəaliyyətinin axırıncı ili üzrə maliyyə vəziyyəti haqqında bank arayışı və bank rekvizitləri;*

*-Son maliyyə ili ərzindəki fəaliyyətinə dair müstəqil auditor tərəfindən təsdiq edilmiş maliyyə hesabatları;*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olmaması barədə müvafiq icra hakimiyyəti orqanından arayışlar (AR Vergilər Nazirliyindən və Dövlət Sosial Müdafiə Fondundan arayışlar);*

*-İddiaçının müvafiq sahə üzrə peşəkarlığını və təcrübəsini, təşkilatı strukturunu, daxili nəzarət və risklərin idarə olunması sistemlərini eləcə də, texniki imkanlarını əks etdirən məlumatlar;*

*-İddiaçının son üç ildə apardığı əməliyyatlar barədə məlumat (göstərdiyi xidmətlər üzrə əməliyyatların məbləği, aktivlərin növü, müştərilər haqqında ümumiləşdirilmiş məlumat və s.).*

*-İddiaçı təqdim edəcəyi xidmətlərin keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.*

**Satınalmada iddiaçı kimi iştirak etmək istəyən malgöndərənlər aşağıdakı tələblərə cavab verməlidir:**

*-öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*

*-müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*

*-satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Xidmət təklifləri sorğusunda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli xidmətlər üzrə xidmət təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni xidmətlərin təklif edilən qiymətinin 20 faizi həcmində **güzəştli düzəliş** tətbiq ediləcəkdir.

**Xidmətin icra müddəti:** Fonda 2019-cu il üzrə investisiya xidmətlərinin (əməliyyatlarının) göstərilməsi ilə bağlı xidmətlər 1 (bir) il müddətinə təqdim edilməlidir.

Xidmət təklifləri sorğusu Azərbaycan dilində tərtib olunmuşdur.

Satınalmada **iştirak haqqı hər lot üzrə 150 (yüz əlli) manat** məbləğində müəyyən edilmişdir. İştirak haqqı Fondun aşağıdakı hesabına ödənildikdən sonra Xidmət təklifləri sorğusu malgöndərənlərə təqdim ediləcəkdir:

**Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu**
**Ünvan: AZ1014, Bakı şəhəri, Nəsimi rayonu, Bül-bül prospekti 40**
**VÖEN: 1403502281**
**H/h: AZ57NABZ01360450000000005944**
**Bank: Azərbaycan Respublikası Mərkəzi Bankı**
**VÖEN: 9900071001**
**Kod: 501004**
**M/h: AZ74NABZ01451700000000001944**
**S.W.İ.F.T bik: NABZAZ2C**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Satınalma üzrə möhürlənmiş, imzalanmış satınalma zərfləri və təklifin təminatı **08 yanvar 2019-cu il saat 18.00-dək,** tələb olunan digər sənədlər isə **21 dekabr 2018-ci il saat 18.00-dək** Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Bakı şəhəri, Bülbül prospekti 40 ünvanında yerləşən inzibati binasında qəbul ediləcəkdir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Əlavə məlumat almaq üçün əlaqələndirici şəxsin iş telefonu və faks nömrəsi: (+99412) 441-24-23 (daxili 126), Faks: (+99412) 598-11-77.

**Satınalmalar Komissiyası.**

## Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyi

Milli Aerokosmik Agentliyi Nazirlər Kabinetinin № 774s saylı 24 noyabr 2018-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş planına əsasən 2018-ci il üçün fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya qəbul elan edir. Qəbul planı:

**Doktoranturaya və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:**

- Ərizə (doktoranturanın fəaliyyət göstərdiyi təşkilatın rəhbərinin adına);
- Kadrların şəxsi qeydiyyat vərəqi (3x4 sm ölçüdə 4 ədəd fotoşəkil ilə birlikdə);
- Tərcümeyi-hal;
- İş yerindən xasiyyətnamə;
- İş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- Çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
- Ali təhsil müəssisəsini bitirmək haqqında diplomun surəti (xarici ölkələrdə təhsil almış
- Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- Şəxsiyyəti təsdiq edən sənədin surəti;
- Fəlsəfə doktoru elmi dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (elmlər doktoru proqramı üçün)

Sənədlər ayrıca qovluqda hazırlanıb şəxsən təqdim edilməlidir.

Fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya sənədlər 2018-ci il dekabrın 4-dən 2019-cu il yanvarın 4-dək hər gün (şənbə və bazar günü istisna olmaqla) saat 10.00-dan 17.00-dək aşağıdakı ünvanda qəbul edilir:

Az1106, Bakı şəhəri, 8-ci mikrorayon, 3123 məh., S.S Axundov küç.1, korpus 2.

Tel.: (012) 562-86-68, 562-23-05.

**Qəbul planı**

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | | | | | | Elmlər doktoru proqramı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Doktorant hazırlığı üzrə qəbul planı | | | | | Dissertant hazırlığı üzrə qəbul planı | | | Doktorant hazırlığı üzrə qəbul planı | | | | | Dissertant hazırlığı üzrə qəbul planı | | |
| | | cəmi | o cümlədən: Büdcə hesabına | | Ödənişli əsaslarla | | cəmi | o cümlədən: Büdcə hesabına | Ödənişli əsaslarla | cəmi | o cümlədən: Büdcə hesabına | | Ödənişli əsaslarla | | cəmi | o cümlədən: Büdcə hesabına | Ödənişli əsaslarla |
| | | | Əyani | Qiyabi | Əyani | Qiyabi | | | | | Əyani | Qiyabi | Əyani | Qiyabi | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 2307.01 | Fiziki kimya | 1 | | 1 | | | | | | 1 | | 1 | | | | | |
| 2426.01 | Ekologiya | 3 | 1 | 2 | | | 2 | 2 | | | | | | | 1 | 1 | |
| 3311.01 | Cihazqayırma texnologiyası | 1 | | 1 | | | | | | 1 | | 1 | | | | | |
| 3313.01 | Maşınqayırma texnologiyası | 1 | | 1 | | | | | | 1 | | 1 | | | | | |
| 3324.02 | Yer kürəsinin aerokosmik tədqiqatları,fotoqrammetriya | 2 | 1 | 1 | | | 1 | 1 | | | | | | | | | |
| 3324.07 | Məsafədən aerokosmik tədqiqatlar | 4 | 2 | 2 | | | 2 | 2 | | | | | | | 1 | 1 | |
| 3325.02 | Radiotexnika,radionaviqasiya, radiolokasiya,televiziya sistemləri | 1 | | 1 | | | | | | 1 | | 1 | | | | | |
| 3337.01 | İnformasiya-ölçmə və idarəetmə sistemləri | 2 | 1 | 1 | | | 1 | 1 | | | | | | | | | |
| 3338.01 | Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi | 2 | 1 | 1 | | | 1 | 1 | | | | | | | | | |
| 3361.01 | Bərk cism elektronikası, radioelektron kompo-nentləri, mikro və nanoelektronika | 2 | 1 | 1 | | | 1 | 1 | | | | | | | | | |
| | Yekun cəmi | 19 | 7 | 12 | | | 8 | 8 | | 4 | | 4 | | | 2 | 2 | |

## BİLDİRİŞ

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Ətraf Mühit üzrə Milli Monitorinq Departamenti tərəfindən Lot-2. Nəqliyyat vasitələrinin satınalınması məqsədi ilə "Respublika" qəzetinin 10 oktyabr 2018-ci il tarixli nömrəsində dərc edilmiş açıq tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə uyğun olaraq heç hesab edilir və onun davamından imtina olunur.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

Bakı Nəqliyyat Agentliyi tərəfindən 02 avqust 2018-ci il tarixində "Respublika qəzetinin 169 (6202) nömrəli tirajında "Yol nişanları"nın satınalınması məqsədilə elan edilmiş açıq tender prosedurunun nəticələri tender predmetinin maliyyələşdirilməsi dayandırıldığından ləğv edilmişdir.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"Respublika" qəzetinin 08 noyabr 2018-ci il tarixli 250 (6283) saylı və 23 noyabr 2018-ci il tarixli 262 (6295) saylı buraxılışlarında, "Tədris Mərkəzi üçün model və maketlərin hazırlanması xidmətinin" satınalınmasına dair açıq tender haqqında elanlarda dərc olunmuş tenderin rekvizitlərinə "Bakı Metropoliteni" QSC-nin digər rekvizitləri əlavə olunsun.

Hesabın adı: BAKI METROPOLİTENİ QSC
Hesab nömrəsi (İBAN):
AZ98AZRT38050019440010268002 AZN
AZ68AZRT38150019780010268002 EUR
AZ88AZRT38150018400010268002 USD
AZ80AZRT38150016430010268002 - RUB
VÖEN 1402871431
Bankın adı: AZƏR-TÜRK BANK ASC (Mərkəz Filialı)
Kod: 501361
VÖEN: 9900006111
Müxbir hesabı:
AZ02NABZ01350100000000022944
SWİFT BİK: AZRTAZ22

**"BAKI METROPOLİTENİ" QSC**
**TENDER KOMİSSİYASI.**

## BİLDİRİŞ

Naftalan Şəhər İcra Hakimiyyəti Naftalan şəhərində 200 yerlik körpələr evi-uşaq bağçasının tikintisi işlərinin təkliflər sorğusu üsulu ilə satınalmasını həyata keçirir. Maraqlanan təşkilatlar 02235-2-13-13 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 07 dekabr 2018-ci il tarixdə saat 17:00-dək qəbul olunur.

**Ünvan:** *Naftalan şəhəri, Ş.Qurbanov - 01, İcra Hakimiyyəti Aparatının inzibati binası.*

**Tender Komissiyası.**

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "İnnovasiyalar Mərkəzi" MMC Səyyar xidmət fəaliyyəti üçün modifikasiya edilmiş 6 (altı) ədəd Fiat Doblo tipli və 10 (on) ədəd Ford Tranzit tipli nəqliyyat vasitələrinin 3 (üç) il (36 ay) müddətinə, bu müddət ərzində qeyd olunan nəqliyyat vasitələrinin təmiri (ehtiyyat hisslərinin dəyişdirilməsi daxil olmaqla), sığorta (icbari və kasko) xərclərinin qarşılanması, texniki təhcizatı (kompyuter avadanlığı və müşahidə kameraları) və müddəti bitdikdə həmin nəqliyyat vasitələrinin İnnovasiyalar Mərkəzi MMC-nin mülkiyyətinə keçməsi şərti ilə icarə xidmətinin göstərilməsi təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (+99412) 444-74-44, daxili-2649 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 21.12.2018-ci il saat 12:00 tarixinədək qəbul olunur. Ünvan: Bakı şəhəri, Həsən Əliyev küçəsi 36 (1 saylı Bakı "ASAN xidmət" mərkəzinin inzibati binası, 5-ci mərtəbə, "İnnovasiyalar Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti).

## AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ

### 2018-ci il üçün doktorantura və dissertanturaya qəbul elan edir:

**Fəlsəfə doktoru proqramı üzrə**

| Elm sahələri və ixtisaslar | İxtisasın şifri | Doktoranturaya qəbul planı: Cəmi | Büdcə hesabına: əy | Büdcə hesabına: qiy. | Ödənişli əsaslarla: əy. | Ödənişli əsaslarla: qiy. | Dissertanturaya qəbul planı: Cəmi | Büd hes. | Ödənişli |
|---|---|---|---|---|---|---|---|---|---|
| Deformasiya olunan bərk cism mexenikası | 2002.01 | 1 | | 1 | | | | | |
| Maşınların,cihazların və aparatların dinamikası,möhkəmliyi | 2004.01 | 1 | 1 | | | | 1 | 1 | |
| Elektronika | 2203.01 | 1 | | 1 | | | | | |
| Elektrotexnika,elektrotexnika mühəndisliyi | 3306.01 | | | | | | 1 | 1 | |
| Sənaye texnologiyası | 3310.01 | | | | | | 1 | 1 | |
| Materiallar texnologiyası | 3312.01 | 1 | 1 | | | | 2 | 2 | |
| Maşınqayırma texnologiyası | 3313.01 | 2 | 1 | 1 | | | 2 | 2 | |
| Maşınlar,avadanlıqlar və proseslər | 3313.02 | 1 | 1 | | | | 1 | 1 | |
| Metallurgiya texnologiyası | 3315.01 | 1 | | 1 | | | 2 | | 2(1məqsədli, STP MMC üçün) |
| Telekommunikasiya texnologiyası | 3325.01 | 1 | 1 | | | | 1 | 1 | |
| Radiotexnika,radioaviqasiya,radiolokasiya,televiziya sistemləri və qurğuları | 3325.02 | 2 | | 2 | | | | | |
| Nəqliyyat sistemləri texnologiyası | 3327.01 | 1 | | 1 | | | 1 | 1 | |
| Xüsusi əməliyyatlar texnologiyası | 3328.01 | 2 | 1 | 1 | | | | | |
| Maşın və mexanizmlər nəzəriyyəsi | 3332.01 | 1 | 1 | | | | | | |
| İnformasiya-ölçmə və idarəetmə sistemləri | 3337.01 | 1 | 1 | | | | 1 | 1 | |
| Sistemli analiz.idarəetmə və informasiya.işlənm. | 3338.01 | 1 | 1 | | | | 1 | 1 | |
| Elektrik stansiyalar(elektrik hissəsi) elektroenergetik sistemlər | 3341.01 | 1 | | 1 | | | 1 | 1 | |
| İstilik texnikasının nəzəri əsasları | 3343.01 | 1 | | 1 | | | 1 | 1 | |
| Sahə iqtisadiyyatı | 5312.01 | 1 | | 1 | | | 3 | 2 | 1(məqsədli, Az.Sah.TMK üçün |
| | | 20 | 9 | 11 | | | 19 | 16 | 3 |

**Elmlər doktoru proqramı üzrə**

| Elm sahələri və ixtisaslar | İxtisasın şifri | Doktoranturaya qəbul planı: Cəmi | Büdcə hesabına: əyani | Büdcə hesabına: qiyabi | Ödənişli əsaslarla: əyani | Ödənişli əsaslarla: qiyabi | Dissertanturaya qəbul planı: Cəmi | Büdcə hesabı-na | Ödənişli |
|---|---|---|---|---|---|---|---|---|---|
| Riyazi fizika tənlikləri | 1212.01 | 1 | | 1 | | | | | |
| Deformasiya olunan bərk cism mexanikası | 2002.01 | 1 | | 1 | | | 1 | 1 | |
| Sənaye texnologiyası | 3310.01 | | | | | | 1 | 1 | |
| Materiallar texnologiyası | 3312.01 | 2 | | 2 | | | | | |
| Maşınqayırma texnologiyası | 3313.01 | 1 | | 1 | | | 2 | 2 | |
| Metallurgiya texnologiyası | 3315.01 | | | | | | 2 | 2 | |
| Nəqliyyat sistemləri texnologiyası | 3327.01 | | | | | | 1 | 1 | |
| İstilik texnikasının nəzəri əsasları | 3343.01 | 1 | | 1 | | | | | |
| Daşınma proseslərin idarə edilməsi | 3350.01 | | | | | | 1 | 1 | |
| Sahə iqtisadiyyatı | 5312.01 | 1 | | 1 | | | 1 | 1 | |
| | | 7 | | 7 | | 9 | 9 | | |

**Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:**

**1.** Universitet rektorunun adına ərizə
**2.** Kadrların şəxsi-qeydiyyat vərəqəsi
**3.** tərcümeyi-hal
**4.** 2 ədəd fotoşəkil( 3x4 ölçüdə)
**5.** iş yerindən xasiyyətnamə
**6.** iş stajı olanlar üçün əmək kitabçasından çıxarış
**7.** çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat
**8.** ali məktəb diplomlarının müvafiq qaydada təsdiq edilmiş sürətləri
**9.** şəxsiyyəti təsdiq edən sənədin surəti

Doktoranturaya sənədlərin qəbulu 2019-cu il 5 yanvar tarixinə qədər AzTU-nun doktorantura şöbəsində (əsas bina otaq 217) aparılır. Fəlsəfə doktoru proqramı üzrə qəbul imtahanları 7 yanvar 2019-cu il tarixindən başlayaraq keçiriləcəkdir. Qəbul qaydaları haqqında lazımı məlumatları AzTU-nun Magistratura və doktorantura şöbəsindən almaq olar (Tel.: 539-12-41).

**REKTORLUQ.**

## Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu 2018/2019-cu tədris ili üçün doktorantura və dissertanturaya qəbul elan edir

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2018-ci il tarixli, 774 s nömrəli Sərəncamı ilə təsdiq olunmuş Plana əsasən, 2018/2019-cu tədris ili üçün iqtisad elmlərinə aid ixtisaslar üzrə doktorantura və dissertanturaya qəbul elan edir.

**Doktorantura və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:**

- ərizə (direktorun adına);
- kadrların şəxsi uçot vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- iş yerindən xasiyyətnamə (işləyənlər üçün);
- əmək kitabçasının surəti (iş stajı olanlar üçün);
- çap olunmuş elmi əsərlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- fəlsəfə doktoru diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (elmlər doktoru hazırlığı üzrə);
- xarici dil bilikləri üzrə beynəlxalq sertifikat (əgər varsa);
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

Sənədlər elan verilən gündən cari il dekabrın 28-dək hər gün (şənbə və bazar günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək qəbul ediləcəkdir.

**2018/2019-cu il üçün doktorantura və dissertanturaya**
**QƏBUL PLANI**

| İxtisasın şifri | İxtisasın adı | Fəlsəfə doktoru hazırlığı üzrə | | | | | | | | Elmlər doktoru hazırlığı üzrə | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | doktoranturaya qəbul planı | | | | | dissertanturaya qəbul planı | | | dissertanturaya qəbul planı | | |
| | | cəmi | o cümlədən: büdcə hesabına | | ödənişli əsaslarla | | cəmi | o cümlədən: büdcə hesabına | ödənişli əsaslarla | cəmi | o cümlədən: büdcə hesabına | ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | | | | |
| 5301.01 | Daxili fiskal siyasət və dövlət maliyyəsi | 1 | 1 | | | | 1 | 1 | | | | |
| 5302.01 | Ekonometriya; iqtisadi statistika | 2 | 1 | 1 | | | 1 | 1 | | 1 | 1 | |
| 5306.01 | Texnoloji innovasiyalar iqtisadiyyatı | 2 | 1 | 1 | | | 1 | 1 | | 1 | 1 | |
| 5309.01 | Sənayenin təşkili və dövlət siyasəti | 1 | 1 | | | | 1 | 1 | | | | |
| 5310.01 | Dünya iqtisadiyyatı | 1 | | | | 1 | 1 | 1 | | | | |
| 5312.01 | Sahə iqtisadiyyatı | 1 | | | | 1 | 1 | 1 | | | | |
| | Cəmi: | 8 | 4 | 2 | | 2 | 6 | 6 | | 2 | 2 | |

Əlaqə telefonu: (+99412) 431 57 95 daxili (36-13);
Ünvan: AZ 1011, Bakı şəhəri, H. Zərdabi prospekti, 88-a
İnternet səhifəsi: *http:/www.ier.az*

# QNET bütün Müstəqil Nümayəndələrini onun "Məram və Qaydalarına" və etik davranış qaydalarına riayət etməklə hər zaman peşəkar münasibət göstərməyə çağırır




**İflas prosesində olan BOKT "Vijn Fond AzərKredit" MMC-nin balansında olan ilkin minimum satış qiyməti 43.347 AZN təşkil edən qızıl-zinət əşyalarının (ikinci əl) topdansatışı həyata keçiriləcəkdir. Satışın keçirilməsi qaydası və satışda iştirak üçün Ərizə forması aşağıdakı linkdə əldə edilə bilər:**

*http://www.azercredit.az/az/sale*

Satışda iştirak etmək istəyən şəxslər Ərizə formasını dolduraraq 09 dekabr 2018-ci il, saat 18:00-dək cəmiyyətin Bakı şəhəri, Nəsimi rayonu, S.Rəhimov/S.Vurğun küçələrinin kəsişməsi, "World Business Center", 3-cü mərtəbədə yerləşən ofisinə təqdim edə və ya *trustee@azercredit.az* e-mail ünvanına göndərə bilərlər.

**Satışın keçiriləcəyi yer:** *Bakı şəhəri, Nəsimi rayonu, S.Rəhimov/S.Vurğun küçələrinin kəsişməsi, "World Business Center", 3-cü mərtəbə;*

**Satışın keçiriləcəyi tarix:** *11 dekabr 2018-ci il*

**Əmlak İnzibatçısı.**

## Kotirovka XKEMİ abadlıq

Azərbaycan Respublikasının Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsi

Abadlıq işlərinin kotirovkalar sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 371-00-33 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 2018-12-14 saat 11:00 tarixinədək qəbul olunur.

Ünvan: Bakı, Xudu Məmmədov 3.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatının və yerli orqanlarının çap və mətbəə materiallarına olan ehtiyacının təmin edilməsinin satınalınması üzrə

## KOTİROVKA SORĞUSU ELAN EDİR

Təkliflər 12 dekabr 2018-ci il saat 17:00-a qədər Bakı şəhəri, H.Zərdabi prospekti 80 ünvanına, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatına təqdim olunmalıdır. Əlavə məlumatı tender komissiyasından ala bilərsiniz.

**Əlaqə telefonu:** *012-530-29-03*

**Tender Komissiyası.**

## Füzuli Rayon İcra Hakimiyyəti dəftərxana mallarının alınması üçün

## KOTİROVKA SORĞUSU ELAN EDİR

Katirovka sorğusunda iştirak etmək üçün sənədlər 05.12.2018-ci il tarixədək qəbul olunur.

